# QURBAN BAYRAMINA ETNOKULTUROLOJİ BAXIŞLAR

*(Əvvəli ötən sayımızda)*

Mifoloji düşüncədə insanların tanrılara, sakral qüvvələrə qurban verilməsi tanrıların insan kimi təsəvvür olunmasının məhsuludur. Edvard Taylor bu barədə deyir ki, qurbanvermə mərasimi "dua mərasimi kimi mədəniyyətin ilkin dönəmində meydana gəlir və tarix boyunca onunla sıx əlaqədə olur. Dualarda tanrıya elə bil bir insana edilirmiş kimi müraciət edildiyi kimi, qurbanvermədə də tanrıya elə bil bir insana verildiyi kimi hədiyyə verilir" [20, s. 465].

Qeyd edək ki, qurbanvermə mövzusu ilə bağlı əsas məsələlərdən biri qurbanın yeyilməsinin mənaları haqqındadır. İngilis antropoloqu C.C.Frezerin "ünsiyyət" nəzəriyyyəsinə görə, qurbanın ətinin yeyilməsi tanrının yeyilməsini ifadə edir. Başqa sözlə, bu nəzəriyyədə tanrı ilə ona verilən qurban eyniləşdirilir. S.A.Tokarev həmin nəzəriyyənin ingilis sosial antropologiyasında özünə kök salması haqqında deyir ki, "ingilis dinşünası Ceyms Frezer "ünsiyyət nəzəriyyəsini" inkişaf etdirmişdir. Qurbanın ətindən dadma, bir növ, tanrının yeyilməsidir. Yeri gəlmişkən, həmin adətə fərqli dinlərdə, eləcə də inkişaf etmiş dinlərdə də rast gəlinir. Xristianlıqda "İsa Məsihin bədəni və qanından dadılmasını" bunun qalığı saymaq olar" [21, s. 590].

Əlbəttə, bu düşüncəni mifik dövrə aid etmək olar. İslam dinində belə bir şey yoxdur. Lakin qurbanvermənin yeməklə bağlı olması məlum bir məsələdir. Bunu qurbanvermənin bəzi dillərdə yemək mənasına gələn sözlərlə ifadə olunması da təsdiq edir. N.N.Yerofeyeva yazır: "Latın, yunan və rus dillərində qurbanvermə ilə bağlı sözlər bu və ya digər şəkildə "yemək" anlayışı ilə bağlıdır. Məsələn, rus dilində "jreti" (tıxışdırmaq) – "jrat" (yemək), "jertva" (qurban) – "jratva" (bişintilər, yeməklər), "jrets" (kahin) – "objora" (qarınqulu) kimi sözlər bunu təsdiq edir" [15, s. 123].

Ənənəvi düşüncədə insan qurbanı təkcə öz ehtiyaclarından irəli gələrək verməmişdir. Təbii ki, burada insanın ehtiyacı da rol oynayır. Lakin insanın qurbanverməyə olan ehtiyacı tanrının, yaxud hər hansı bir kult obyektinin ona qurban verilməsini ehtiyacı və zərurəti ilə də şərtlənmişdir. Bunu inşaat qurbanları daha aydın təsdiq edir. Kəmalə İslamzadə yazır: "İnsanların inşaat qurbanı verməyin vacib olduğu barədə əminliyi hansı əndişədən, ehtiyatdan, qorxudan irəli gəlmişdir?... Əvvəla, bənnaların ciddi-cəhdinə baxmayaraq, əziyyətlə ucaltdıqları divarlar çökəndə, bünövrə heç cür sabit dayanmayanda tikintinin qurban tələb etdiyini düşünürlər və bunu təmin edirlər. İkincisi, qurban verilmədikdə bəzən müvəffəqiyyətlə başa çatmış tikili öz funksiyasını yerinə yetirə bilmir, onun təyinatı ilə fəaliyyət göstərməsinə əngəllər törənir. Günümüzə gəlib çatmış folklor mətnləri də bunu təsdiq edir" [9, s. 69].

T.N.Dmitriyeva da göstərir ki, "tikinti qurbanları, yaxud yeni il mərasimlərində verilən qurbanlar kosmoqoniyanı, dünyanın yaradılışını reaktuallaşdırır" [14, s. 12].

İşin elmi nəticə və yenilikləri: Bütün bu fikirləri yekunlaşdırdıqda aşağıdakı qənaətlər hasil olur:

a) Qurbanvermə mərasimi dünya mədəniyyət tarixinin ən qədim və ilkin hadisələrindəndir.

b) Qurbanvermə mərasimi insanla sakral qüvvələr arasında təmas, əlaqə mexnizmidir. Bu əlaqənin mahiyyətində "paya-pay" ideyası durur. İnsan sakral qüvvəyə pay verir və əvəzində ondan hər hansı şəkildə ifadə olunan "pay" alır.

c) İslam dinində qurban Allaha yaxınlaşmaq, onun razılığını qazanmaq məqsədini daşıyır.

ç) Bütün ənənəvi mədəniyyətlərdə qurbanvermənin mifoloji və dini adət-ənənələri bir-birinə qarışmışdır.

İşin nəzəri və praktiki əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti bu işdən bayramlar haqqında aparılacaq başqa tədqiqatlarda nəzəri qaynaq olaraq istifadə imkanları, praktiki əhəmiyyəti isə ali məktəblərdə mərasim folklorunun tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## ƏDƏBİYYAT


1. *Bayat, F. Türk Mitolojik Sistemi F.Bayat. – İstanbul: Ötüken, Cild 1, – 2007, – 380 s.*

2. *Engin, R. Geçmişten Günümüze Amucalarda Kurban Ve Kurban Gelenekleri (makale) Kırklar Sofrasından İrfan Sohbetleri. – Avangard Print Yayınevi, – 2016, – s. 47-110*

3. *Əliyev, R. Qurban və onun arxetipi haqqında struktur-semantik analiz Bakı: "Dədə Qorqud" jur. – 2005, № 4, – s. 68-77*

4. *Əliyev, R. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər) R.Əliyev. – Bakı: Elm, – 2012. – 350 s.*

5. *Əliyeva S.S. Azərbaycan folklorunda qurbanvermə motivi və onun ritual-mifoloji kökləri (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) – Bakı, 2020. – 171 s.*

6. *Gümüşoğlu, D. Kurban nedir, İnsanlık Tarihinde Kurban Anlayışı (makale) Kırklar Sofrasından İrfan Sohbetleri. – Avangard Print Yayınevi, – 2016, – s. 111-122*

7. *Gramatikova, N. Kurban (makale) Kırklar Sofrasından İrfan Sohbetleri. – Avangard Print Yayınevi, – 2016, – s. 45-46*

8. *Xəlil, A. Oğuz eposunda inisiasiya, sakrallaşdırma və qurban (toplu) "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" jur., – 2018. № 1, – s. 53-59.*

9. *İslamzadə, K. "İnşaat qurbanı" mərasimi və eyniadlı folklor süjeti "Dədə Qorqud" jur., – 2015. № 3, – s. 67-74*

10. *Kaşqarlı, M. Divanü Lugat-it-Türk – Çeviren B.Atalay. Birleştirilmiş birinci baskı (Cilt IV) M.Kaşqarlı. – Ankara: Türk Dil Kurumu Yayınları, – 2013, 886 s.*

11. *Qasımova, A. Qədim ərəb cəmiyyətində qurban mərasimi və öncəgörmələr "Dədə Qorqud" jur., – 2008, № 4. – s. 110-117*

12. *Qafarlı, R. Mifologiya [6 cilddə] Mifogenez: rekonstruksiya, struktur, poetika. – Bakı: Elm və təhsil, – Cild 1. – 2015. – 454 s.*

13. *Rzasoy, S. Muğanlıda Novruz karnavalı S.Rzasoy. – Tbilisi: Tbiliselebi, – 2014. – 106 s.*

14. *Дмитриева, Т.Н. Жертвоприношение: поиски истоков // Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). – Москва: Языки русской культуры, – 2000, – с. 11-22*

15. *Ерофеева, Н.Н. Архаический жертвенник как текст договора человеческого коллектива с богом об условиях землепол Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). – Москва: Языки русской культуры, – 2000, – с. 123-146*

16. *Жеребина, Т.В. Система жертвоприношений у шаманистов Северной Азии (к проблеме типологии) // Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). – Москва: Языки русской культуры, – 2000, – с. 23-41*

17. *Кифишин, А.Г. Жертвоприношения ассирийских царей. Структура ритуала // Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). – Москва: Языки русской культуры, – 2000, – с. 97-122*

18. *Московский, А.В.Понятие жертвоприношения в философском и антропологическом дискурсе XX века / (Диссертация на соискание кандидата философских наук). – Санкт Петербург: 2009, – 178 с.*

19. *Перлов, П.И. Жертвоприношения статуям умерших правителей в Шумере последней четверти III тыс. до н. э. // Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). – Москва: Языки русской культуры, – 2000, – с. 91-96*

20. *Тайлор, Э.Б. Первобытная культура / Э.Б.Тайлор. – Москва: Политиздат, – 1989, – 574 с.*

21. *Токарев, С.А. Ранние формы религии / С.А.Токарев. – Москва: Издательство политической литературы, – 1990, – 622 с.*

22. *Топоров, В.Н. Первобытные представления о мире (общий взгляд) // Очерки естественно-научных знаний в древности (сб. ст.) – Москва: Наука, – 1982, – с. 8-40*

23. *Топоров, В.Н. О ритуале. Введение в проблематику // Архаический ритуал в фольклорных и раннелитературных памятниках (сб. ст.). – Москва: Наука, – 1988, – с. 7-60*

24. *Элиаде, М. Аспекты мифа / М.Элиаде. – Москва: Академический проект, – 2001, – 240 с. 25. щттпс://ру.wикипедиа.орэ/wики/ – Жертвоприношение*





***Şakir Əlif oğlu ALBALIYEV,***
***AMEA Folklor İnstitutu,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***